Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Sahilsiz ömür

**Nəbi Xəzrinin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Sahilsiz ömür:** Nəbi Xəzrinin 95 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. K.Səmədzadə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

*Nəbi Xəzri öz şeirlərində xalqımızın həm qəhrəman keçmişini, həm də bugünkü həyatını və sabahını yüksək ustalıqla, fitri sənətkarlıqla tərənnüm edir. Öz şeirlərində və poemalarında şair cəmiyyətimizin inkişafı üçün, indiki nəslin tərbiyəsi üçün birinci dərəcəli əhəmiyyəti olan problemlər qaldırır. Həm də müəllifin mövqeyi həmişə aydın şəkildə bildirilir, onun xalqa bağlılığı, onlara sədaqətlə xidməti nümayiş etdirilir.*

**Heydər Əliyev,**
*Ümummilli lider*

İnsan o vaxt xatırlanır ki, özündən sonra bir iz qoyub gedir. Nəbi Xəzri Azərbaycan ədəbiyyatında yüz illərlə yaşayacaq iz qoyub gedib. Fəlsəfi məzmunlu əsərləri ilə ədəbi aləmimizə özünəməxsus bir gözəllik bəxş edib...

Nəbi Xəzri geniş və hərtərəfli yaradıcılıq yolu keçıb. Bir şair olmaqla bərabər nasir, dramaturq, publisist və tərcüməçi kimi də şöhrət qazanıb. Bir çox orden və medallara, dövlət mükafatlarına, Azərbaycan Əməkdar incəsənət xadimi, Xalq şairi fəxri adlarına, Azərbaycan Respubliksının ali dövlət təltiflərinə "Şöhrət" və "İstiqlal" ordenlərinə layiq görülüb. Görkəmli şair ömrünün müdrik çağında 2007-ci il yanvarın 15-də Bakı şəhərində vəfat edib.

Bəli, bu gün 95 illik yubileyini dövlət səviyyəsində qeyd etdiyimiz şair, dramaturq, tərcüməçi, ən önəmlisi isə gözəl insan Nəbi Xəzri yaradıcılığına bir daha nəzər etmiş olacağıq. Elə bu baxımdan F. Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsi tərəfindən hazırladığımız **"Sahilsiz ömür"** adlı vəsaitimizi sizlər üçün təqdim edirik.

## Bölmə I

## Həyat və yaradıcılığı

Sizin yaradıcılığınız dünya, insan və təbiət haqqında dərin fəlsəfi məzmunu, lirizmi, vətəndaşlıq qayəsi və milli koloriti ilə geniş oxucu kütləsinin böyük rəğbətini qazanmışdır. Şeirlərinizə çox sayda musiqi əsərlərinin yaranması sübut edir ki, siz dilimizin poetik imkanlarından ustalıqla bəhrələnmiş, poeziyanın həqiqi nümunələrini yaratmağa tam müvəffəq olmusunuz.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Xoş bir ifadə, könül ovsunlayan söz, dillər əzbəri olan misralar yaşadır şairi. Və o şair xoşbəxt qələm adamlarındandır ki, dünyasını dəyişəndən sonra da bunu bacarır. “Anamın anasısan, Azərbaycan” - deyən və misrası ilə yurduna çələng hörməyi bacaran şair, pəncərələrə çiçək qonduraraq könüllərə ülvi sevda bəxş edən və ən əsası hansı vəzifədə çalışmasından asılı olmayaraq, ali vətəndaş duyğuları, məsuliyyəti və vətən eşqi ilə yazıb-yaratmış sevilən Xalq şairi Nəbi Xəzri də belələrindən idi.

Elə bu məziyyətlərə görə də Nəbi Xəzri həmişə oxunan və sevilən şairlərimizdən biri olub.

Nəbi Xəzri bizim o şairlərdəndir ki, onun yaradıcılığı zaman küləyinin əsirliyindən çox uzaqdır. Torpağa bağlılıq, yurd sevgisi, nikbinlik, lirizm, hisslərin dərinliyi onun poeziyasında elə lövbər salıb ki, hər bir əsəri oxucunun ürəyinə, qəlbinə təsir edərək yaddaşına köçüb. Könlünü poeziyaya bağlayan gündən Nəbi Xəzri elə əsərlərə imza atıb ki, onlar şairə ancaq rəğbət və şöhrət gətirib. Nəbi Xəzrinin dünyanın 45 ölkəsində dəfələrlə kitabı çıxıb. Respublikanın Əməkdar mədəniyyət xadimi, bir

sıra dövlət mükafatları laureatı, Xalq şairi Nəbi Xəzri Bolqarıstanın, Monqolustanın, keçmiş Çexoslovakiyanın dövlət mükafatına layiq görülüb. Maraqlıdır ki, imzasının altından sahibi olduğu fəxri adların, titulların birini də yazmazdı. Müsahibələrinin birində: "Adlarla bağlı fərmanları yadigar kimi həmişə saxlayıram. Türkiyədə mənim adımın altında yazırlar: "Azərbaycanın milli şairi". Görürsünüzmü neçə gözəl səslənir. Hər bir sənət sahibi məhz milli olmalıdır. Əgər Azərbaycanın Milli Qəhrəmanı deyilirsə, deməli, milli şairi, milli yazıçısı, milli artisti də deyilməlidir" öz fikrini bildirirdi.

Nəbi Xəzrinin şeirlərinə onlarca musiqi yazılıb. Onun sözlərindən qanad açmış nəğmələr bu gün dillər əzbəridir. Unudulmaz Şövkət Ələkbərovanın xüsusi məlahət və həzinliklə ifa etdiyi "Dərələr", "Sənin üçün", "Ağ çiçək", "Sən getdin" kimi mahnılar yaddaşlarda yaşayır. Əlbəttdə, Nəbi Xəzrinin nəğmələrini çox müğənni oxuyub, amma Şövkət xanımın adını xüsusi olaraq ona görə çəkirik ki, həmin mahnıların ilahi ifası məhz ona məxsus idi. "Dərələr" nəğməsini eşidəndə unudulmaz müğənnimizin könlümüzü riqqətə gətirən, bizi kövrəldən səsi – "Segah"ı yadımızdan çıxmaz:

Əgər ki, yıxılsam, çinar göstərin.
Mən ona söykənib arana baxım,
Gözlərim görməsə, Göygölü verin.
Mən onun gözü ilə cahana baxım.
Hər yerdə həmişə sənsən gümanım,
Canım, gözüm mənim, Azərbaycanım!

Azərbaycan teatr sənətinin inkişafında Nəbi Xəzri dramaturq kimi də fəal iştirak etmişdi. O, bir sıra maraqlı tamaşaların da müəllifidir. Milli teatrın səhnəsində uğurla oynanılmış "Torpağa sancılan qılınc", "Əks-səda", "Sən yanmasan", "Mirzə Şəfi Vazeh", "Mənsiz dünya", "Gecə döyülən qapılar", "Burla

xatun" və digər səhnə əsərləri tamaşaçı rəğbəti ilə qarşılanmışdır.

Nəbi Xəzrinin poeziyasında olan nikbin ruh onun öz xarakterindən, şair inamından doğur. Bütün əsərlərində bir ideya xüsusilə diqqət çəkir. İnsan doğulanda anlamalıdır ki, onun bu dünyadan gedəcəyi bir gün var. Amma həmişə yaşayan, qalan insanın saf niyyəti və əməlləridir. Əgər insan həqiqətən bir qəhrəman kimi yaşasa, onun çəkdiyi zəhmət hədər getməz. Ömrünün üstünü bir ölümsüzlük alar. Hətta illərin çoxluğu belə onu qocalda bilməz:

Ləpə tək üstümdən keçəcək illər,
Əbədiyyət-mənim səhərim kimi.
Əgər qocalsam da Xəzərim qədər,
Cavan qalacağam Xəzərim kimi.

Ədəbiyyatşünas alimlərin dediyi kimi, Azərbaycan şeirində Nəbi Xəzri yaradıcılığının öz möhtəşəm yeri var. Öncə onun vətəndaşlığı, xalq, millət təşəbbüskeşliyi diqqət çəkir. Nəbi Xəzri bütün insanlar üçün ümid qapılarını açıq, bütün ömürlərini nur içində arzulayan, dünyanı həqiqətən mavi rəngdə görən bir şair idi. O öz oxucuları ilə çox səmimi idi və bu səmimiyyət də hər kəsə doğma təsir bağışlayırdı. Ona görə də şeirləri dərin-dərin okeanlardan çox dibi görünən bir ovuc bulaq suyunu xatırladan-aydın və şəffafdır.

Qarlı bir zirvə olsan,
Ağ buludun olaram.
Dərin xəyala dalsan,
Mən sükutun olaram.

Sevginin ucalığını, büllurluğunu Nəbi Xəzri çox sərrast və dəqiq şəkildə poetik qələmə almağı, bədiiləşdirməyi bacaran şairlərdəndir. Elə pərəstişkarları da bu aydınlığa və hisslərin təbiiliyinə görə Nəbi Xəzrini ürəkdən sevirdilər.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

**Nəbi Xəzri müasir bəşəriyyətin tərkib hissəsinə daxil olan poetik təfəkkürlü bir şəxsiyyətdir. Ona görə də şairin poeziyasında həm doğma torpağa bağlılıq, həm də yerdən kainata nəzər salmaq qabiliyyəti vardır.**

**N. Xəzri yaradıcılığı üfüqi istiqamətdə bütün Azərbaycanı, Azərbaycan xalqını və onun ardınca dünya xalqlarını əhatə edir. Bu onun poetik yaradıcılığında qabarıq şəkildə öz əksini tapır.**

Bu gün uzun yaradıcılıq yolu keçərək ədəbiyyatımıza, bədii söz sənətimizə qiymətli töhfələr bəxş etmiş Azərbaycan ədəbiyyatı tarixində ən önəmli yerlərdən birini tutmuş Nəbi Xəzrinin 95 illik yubileyi respublikamızda geniş şəkildə qeyd olunur. Bu münasibətlə keçirilməsi nəzərdə tutulan tədbirlərdə məqsədimiz Nəbi Xəzrinin zəngin irsinin oxucular arasında daha da sevilməsinə xidmət etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən yubileylə bağlı bir çox təhsil ocaqlarında, musiqi məktəblərində, kitabxanalarda, mədəniyyət ocaqlarında silsilə tədbirlərin keçirilməsinə başlanılmışdır. Həmçinin F.Köçərli adına Resbublika Uşaq Kitabxanasında Nəbi Xəzri yaradıcılığının geniş təbliği üçün bir sıra tədbirlər planı hazırlanmışdır. İlk olaraq kitabxanada sərgi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “N. Xəzri – 95”, “N. Xəzri kəhkəşanı”, “Unudulmaz şair”, “Görkəmli sənətkar”, “İlhamlı sənətkar”, “Sənətkarın xatirəsi”, “Şairin ulduz karvanı”, “Sənət zirvəsinə ucalan şair”, “Yüksək pafoslu poeziya” və s. Sərginin nümunəsini veririk:

**Başlıq:**

1. “Nəbi Xəzri – 95”;

2. Kitablarının nümayişi;
3. Dövri mətbuatda çap olunmuş qəzət və jurnal materiallarının kartotekası;
4. Görkəmli şəxsiyyətlərin Nəbi Xəzri haqqında söylədikləri;
5. N. Xəzrinin anadan olmasının 95 illiyi münasibətilə hazırlanmış bukletlərin nümayişi;
6. Foto sərgi;
7. Şeir parçası:

   Mən çinar adıyla nəğmə deyirəm,
   O nəğmə eşqilə sinəmi yardım.
   Deyirəm, bilirsən, mən nə deyirəm?
   Çinarsız özümü yetim sanardım.
   Mən aldım cahandan arzu da, kam da,
   Dolaşdı Çinarın adı dilimdə.
   Mən Çinar altında doğulmasam da,
   İstərəm o bitsin son mənzilimdə.

## Görkəmli şəxsiyyətlər Nəbi Xəzri haqqında

Nəbi Xəzrinin öz poetik aləmi, məcazlar, bənzətmələr, bədii ifadələr aləmi vardır. Bu aləmi o özü yaratmışdır və ona sadiqdir. Bu poetik aləm çox zəngin mənəvi aləmin ideyalar, fikirlər, hisslər aləminin gözəl bir inikas formasıdır.

Şairin mənəvi dünyasını mən dörd kəlmə ilə ifadə edərdim: ucalıq, genişlik, təmizlik, gözəllik.

Nəbi şeirimizə dağların vüqarını, zirvələrin ucalığını, ümmanların, dənizlərin genişliyini, baharın, yağış-qarın, çiçəklərin təmizliyini, insan qəlbinin, sevginin, insana inamın gözəlliyini gətirmişdir.

**Məmməd Arif,**
*ədəbiyyatşünas, professor*

Nəbri Xəzri yaşayıb duyduqlarını sənətkarlıqla, hərarətlə, məhəbbətlə, məharətlə qələmə aldığındandır ki, şeirləri geniş oxucu kütlələri arasında sevilmiş, dərin rəğbət qazana bilmişdir. Nəbinin əsərlərinin qəhrəmanı yeni insandır. Şairin şeirlərinin mahnılara çevrilməsi onun sevimli qəhrəmanları ilə, nəcib hisslərlə bağlıdır və böyük səadətdir.

Mən Nəbi Xəzrinin şeirlərini küll halında mahnılar adlandırsam, fikrimdə yanılmaram. Bunlar vətən, xalq, canlı təbiət lövhələri, məhəbbət, sədaqət, dostluq, qardaşlıq haqqında mahnılardır.

**Süleyman Rüstəm,**
*Xalq şairi*

Nəbi Xəzrinin özünəməxsus səsi, həyata və insana öz münasibəti var. Onun haqqında danışanda yadıma Azərbaycanın uca çinarları düşür – onların qüdrətli kökləri torpağın şirəsini içir. Nəbi Xəzri poeziyası da beləcə xalq poeziyasının

həyatverici şirəsi ilə qidalanır, bu mənbədən qüvvət və qüdrət alır.

**Rəsul Həmzətov,**
*avar şairi, yazıçısı, publisist*

Nəbi Xəzrinin məhəbbət mövzusunda yazdığı zərif, həyəcanlı, gün işığı kimi şəffaf şeirləri bu əbədi mövzunun ümumittifaq poeziyasında ən yaxşı nümunələrdəndir. Onları ilk dəfə ürək döyüntüsü ilə oxumuşam.

Nəbi Xəzri qələmində söz xırdalanmır, ona görə ki, ciddi və dərin fikirləri, hissləri ifadə edir. Bu gün Azərbaycanın Xalq şairi adını daşıyan qələm dostumun sətirlərində xalqın qədim poeziya ənənələri duyulur. Məhz bu ənənələrə söykəndiyi üçün müasirliyin zirvələrini fəth edə bilir.

**Boris Oleynik,**
*ukraynalı şair*

Nəbi Xəzri poeziyasında lirika və epiklik qəribə bir vəhdət təşkil edir. Onun zərif, romantik ruhlu, həyəcanlı məhəbbət lirikasını oxuyandan, dünyadan sonra Sevil Qaziyeva, Tərlan Musayeva kimi əmək qəhrəmanları, Sumqayıt zəhmətkeşlərinin quruculuq işləri barədə yazdığı poemaları mütaliə edəndə elə bil başqa bir şairi oxuyursan. Məncə, bu, istedadın gücüdür, çoxcəhətliliyidir. Həqiqi istedadda lirik və epik keyfiyyət ayrılmaz olur.

**Yeqor İsayev,**
*Rus sovet şairi*

Nəbinin şeirlərini həyat və insan haqqında düşüncələr adlandırmaq olar. Bu düşüncələrin mərkəzində şair “mən”i dayanır, heç kəsə bənzəməyən, ancaq özünə oxşayan, özünü vətən və xalq məhəbbəti, beynəlmiləlçilik humanizm, əzilən

xalqların azadlıq mübarizələrinə, əmək qəhrəmanlarına rəğbət, ana, ailə, dost, övlad qayğısı kimi əhatəli bir qələmə aldığı mövzularda özüdür. Bu, şair ilhamının gücüdür, qüdrətidir, bənzərsizliyidir.

**Kamal Talıbzadə,**
*tənqidçi, ədəbiyyatşünas, professor*




Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Xalq şairi Nəbi Xəzri yaradıcılığının oxucular arasında geniş təbligi üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında kitab müzakirəsinin keçirilməsi vacibdir. 2014-cü ildə Bakı, "Təhsil" nəşriyyatında çap olunmuş "Seçilmiş əsərlər" adlı kitabın müzakirəsinə kitabxanaçı belə başlayır: Bəli, hörmətli kitabsevərlər, şeir sevərlər! Bu gün biz sizinlə kitab müzakirəsinə yığışmışıq. Gəlin ilk əvvəl sizinlə birlikdə Nəbi Xəzrinin həyat və yaradıcılığı ilə bağlı videoçarxa baxaq.

Əsl mətləbə keçməzdən əvvəl istedad və zəhmətdən qısaca bəhs etmək istəyirəm.

Nəbi Xəzri müasir bəşəriyyətin tərkib hissəsinə daxil olan poetik təfəkkürlü bir şəxsiyyətdir. Ona görə də şairin poeziyasında həm doğma torpağa bağlılıq, həm də yerdən kainata nəzər salmaq qabiliyyəti vardır.

Nəbi Xəzri yaradıcılığı üfüqi istiqamətdə bütün Azərbaycanı, Azərbaycan xalqını və onun ardınca dünya xalqlarını əhatə edir. Bu onun poetik yaradıcılığında qabarıq şəkildə öz əksini tapır.

Həyatda hər bir insanın başına yaşla əlaqədar müəyyən hadisə gələ bilər. Məsələn, insanın gözü kor ola bilər, yaxud taqətdən düşdüyündən, sərbəst yeriyə bilmədiyindən hər hansısa

bir əşyaya və ya dayağa ehtiyacı ola bilər. Belə halda şair yıxılmaq ehtimalı olan insana dayaq nöqtəsi çinarı, gözləri kor olana yeni göz-kainat aynasını gölü nişan verir. Lal olduqda isə şair Xəzər dalğalarının dili ilə danışmağı üstün tutur. Bütün bunlar onun daxili dünyasının poetik inikasıdır, şairin dara düşə biləcək insanlara verdiyi məsləhətdir. Fikir dünyasının zəngin xəzinəsi ancaq müdriklərə xasdır.

Nəbi Xəzri ana torpağa bütün varlığı ilə bağlıdır. Bu bioloji bağlılıqda insana xas olan ən saf duyğular durur. Onlardan biri də Vətəni sevməkdir, vətənpərvərlikdir. Vətənpərvərlik isə üstündə həyata gəldiyin, ayaq tutub yeridiyin, ilk dəfə gözünü açarkən baxdığın, qidalandığın, gözəlliyindən mənəvi zövq aldığın, insanları ilə birgə yaşayıb-yaratdığın dünyadır. Həyat vətənpərvərsiz, vətənpərvərlik isə həyatsız ola bilməz.

Bu baxımdan da Nəbi Xəzri vətənpərvərliyi özünə həyat meyarı kimi, insanların daxili aləminin özəyi kimi götürmüşdür.

N.Xəzri şeirinin iki misrasında onun vətənpərvərliyinin canı, qanı, döyünən ürəyi, dərin düşüncəsi cəmləşmişdir. O yazmışdır:

...Şair Nəbi son nəfəsdə
Bu torpağı qucub gedər!

Bu iki misra şairin torpaq qədri bilməsinə, ona minnətdar olmasına və son nəfəsində ana torpağı bağrına basacağına, qucacağına şair sözü verir. Çünki Vətənə sadiq olan hər bir şəxs son nəfəsdə ana torpağı qucub getməlidir. Vətən torpağını qucmayıb dünyadan gedənlər doğma torpağa yaddırlar.

N. Xəzri tariximizin ən parlaq səhifələrini bu günə gətirməklə öz yaradıcılıq missiyasını tamlaşdırmış və ona yeni həyat arxacı vermişdir.

N. Xəzri bir şair kimi Azərbaycan poeziyasına səssiz-səmirsiz və həm də vaxt baxımından uzun illər ərzində daxil olmuş, kök salmış və tədricən özünün layiqli yerini

tutmuşdur. N. Xəzri Azərbaycan poeziyasına ehtiyatlı addımlarla, yazacağı əsərləri beyin süzgəcindən keçirə-keçirə, poetik fikirləri ağıl xəlbirində ələyə-ələyə, söz dünyasının incilərini seçə-seçə, məntiq qatları karvanında hər bir ifadəyə layiqli yer tapa-tapa gəlmişdir.

Bəli, bu gün Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Nəbi Xəzrinin ayrı-ayrı vaxtlarda qələmə aldığı şeir və poemalarından ibarət "Seçilmiş əsərlər" adlı kitabı ilə tanış olduq. Mövzu üfüqlərinin genişliyi və rəngarəngliyi ilə səciyyələnən bu ədəbi nümunələr tanınmış şairin yaradıcılığı haqqında insanda dolğun təsəvvür yaradır. İndi isə kitabda yer almış şeirlərdən birini oxucuların ifasında dinləyək.

Oxucular səhnəyə daxil olur: **"Mükafatımdır"** adlı şeiri söyləyirlər.

Mükafat nə qızıl, nə də dəmirdir,
Mükafat inamım, etiqadımdır,
Qiyməti nə xanlar, xaqanlar verir,
Xalqın bircə sözü mükafatımdır.

Ağır cığırlardan astaca keçdim,
İllər zirvə-zirvə xatiratımdır.
Dərin bulaqlardan acı su içdim,
Olsun, bu da mənim mükafatımdır.

İlhamın qədrini bilmədim bəzən,
O mənim küsəyən köhlən atımdır.
Ulduzlar qoynunda ulduz tək süzən
Sonra dönüb gələn mükafatımdır.

Gəldim şeirə eşqin etibarıyla,
Dedim sənət mənim kainatımdır.

Qəlbdədir günəşi, ulduzlarıyla,
Mənim kainatım mükafatımdır.

Azərbaycanın Xalq şairi Nəbi Xəzrinin adını hamı hörmətlə çəkir. Onun poeziyası geniş kütlələr arasında yayılmış və sevilmişdir.

Şair öz yaradıcılığı dövründə balaca uşaqları da unutmayıb, onlar üçün "Qızımın nəğmələri" adlı silsilə şeirlər də yazıb. Bu şeirlər dərsliklərə düşüb, müxtəlif almanaxlarda çıxıb, onların bəziləri jurnalların səhifələrini bəzəyib. Rus şairi Jakov Akim bu şeirləri tərcümə edib, Moskvada, "Detskaya literatura" nəşriyyatında ayrıca kitab şəklində dərc elətdirib. Bunlardan "Günəş batarkən", "Qaranquş qonaqdırmı" şeirlərini misal göstərmək olar.

Oxucular səhnəyə daxil olur, "Günəş batarkən", "Qaranquş qonaqdırmı"? şeirlərini söyləyirlər.

Nə oldu, itdi günəş?
Bəs hara getdi günəş?
Günəş getdi ki, sənə
Səhər gətirsin yenə.

**Qaranquş qonaqdırmı?**
Bizim eyvanda yenə
Yuva qurdu qaranquş.
Qulaq asdım səsinə,
Oxudu mehriban quş.
Dedim:-Güldü bağımız,
Görünəndə gözə sən.
Ay əziz qonağımız,
Xoş gəlmisən bizə sən!
Quş dilləndi:-Mənə bax,
İstərəm sənə deyəm,

Payızda getdim qonaq,
Yazda öz evimdəyəm.

**Nənəm nağıl danışır**
Bir sevinc var hər üzdə,
Nənəm nağıl danışır.
Uzanmışıq qum üstə,
Nənəm nağıl danışır.

Söyüd başını əyir,
İydə üzümə dəyir,
Çinar susub dinləyir,
Nənəm nağıl danışır.

Bax, ulduzlar göz vurur,
Ay başım üstə durur.
Onlar da sanki duyur:
Nənəm nağıl danışır...
Bir sevinc var hər üzdə,
Nənəm nağıl danışır.
Uzanmışıq qum üstə,
Nənəm nağıl danışır.

Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, ictimai xadim, Xalq şairi Nəbi Xəzrinin anadan olmasının 95 illiyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də söhbətdir. "Ucalıq" adlı söhbəti yuxarı yaş qrup uşaqlar arasında keçirmək məqsədəuyğun olar. Kitabxanaçı tədbirə şair və yazıçılarla yanaşı, ədəbiyyat müəllimlərini, fəal oxucuları dəvət edir. Tədbir Nəbi Xəzrinin sitatı ilə açıq elan edilir: **"Şeir mənim üçün bir kainatdır"...**

Mən bir Çinar tanıyıram, poeziya çinarı... Kökü min bir tellərlə ana torpağa bağlı, qollu-budaqlı, zərrin şəfəqlərilə göylər altında doğma yurda nur çiləyən, günəşin sinəsindən güc və qüdrət alan, gözəlliyi ilə könülləri sehrləyən çinar...

Mən bir Bulaq tanıyıram. Şeir bulağı...Suyu sərin, duru, mənası dərin, nəğməsi həzin, insanlara sevinc və fərəh gətirən, bitib-tükənməyən, əbədi çağlayan bulaq...

Mən bir Dağ tanıyıram. Poeziya dağı... Torpaqda əzəmətlə dayanan, göylərin od qamçısını əlindən alan, qoynu-qoltuğu insanlara həyat və gözəlliklə dolan, yadların önündə səngərtək dayanan məğrur dağ...

Mən bir Dərə tanıyıram, şeir dərəsi...Mışıl-mışıl yatan dərə. Bəndi-bərəsi sal qayalardan hörülmüş, dağların baş aparan, at oynadan sellərinə kəmənd atan, çayların gur sularını, bulaqların zümzüməsinə bir nəhrə qatan dərə...

Mən bir Çığır tanıyıram, şeir cığırı...Yallardan, yamaclardan, meşələrdən keçib zirvələrə doğru baş alan cığır. Qayaların üstündən, çəmənlərin arasından, güllərin-çiçəklərin sinəsindən sənət kəhkəşanına üz tutan çığır...

Mən bir Dəniz tanıyaram, poeziya dənizi, şeir-sənət dənizi. Ana Kürü, xan Arazı sinəsində bəsləyən, insanları yeni-yeni müjdələrə səsləyən, yerlərin, göylərin çilçırağını aynasında əks edən dəniz...

Mən bir Nəğmə tanıyıram, körpə təbəssümlü, süd qoxulu mavilik nəğməsi. Təbiətə, göylərə, dəryalara, meşələrə, insanların gecəsinə-gündüzünə, səadət dünyasına, mavilikdən libas biçən nəğmə, nur dolu badələrdən içən nəğmə, duyğuları oyadıb ürəklərdən şimşək kimi keçən nəğmə...

Mən bir şair tanıyıram, özü mərd, təbiəti sadə, qayğısı böyük, el canlı, dost gərəkli, iti qələmli, coşqun ilhamlı, sözü bütöv, sərt-kəsərli şair... Qəlbi çinarların, bulaqların, dağların, dərələrin, dənizlərin... verdiyi payla silələnib insanlara sevinc və

şadlıq gətirən, onların arzu və istəklərindən poetik çələnglər hörən şair... Ağ gününü, gündüzünü öz elində-obasında, sadə baba komasında görən şair... Bəxtəvər və xoş çağlarını əsarətdə ömür sürən, azadlıqdan məhrum olan xalqlarla, ölkələrlə bölən şair... Ömrünün 95-ci baharını ılıq nəfəsli payızda qeyd etdiyimiz Nəbi Xəzri...

Tədbirdə Nəbi Xəzrinin "Şair kimdir?" şeirini oxucular səsləndirir.

Şeiri mən yazmıram,
Özü yazılır
Ürəyin dediyi
Sözü yazılır.

Sevgi misraları
Düzüm-düzümdür
Sinədə titrəşən
Sirli sözümdür.
Məhəbbət ordadır,
Nifrət də orda
Mən ona dözürəm
Soyuqda, qarda.

Onun poetik dünyasına daxil olanda biz qıjıltılı çaylara sinəsində yer verən, insanın ruhuna gümrahlıq, sağlamlıq, sərinlik çiləyən dərələrdən keçir, düzlərin dumanında azır, sıldırım-sərt qayalı, güllü-çiçəkli, mavi örpəkli dağlara qalxır, qoynu quş nəğməsi ilə basılı meşələrdən adlayır, günəşin altında, suların qoynunda, fabrik-zavodlarda, tarlalarda, bağlarda-bağçalarda xarüqələr yaradan insanın sevinc və fərəh dolu əməllərini görür, nurani, mərd, hünərvər, comərd babalarımızın, ismətli nənələrimizin, fədakar atalarımızın əfsanəvi dünyasını səyahət edir, qəhrəman oğullarımızın,

həyalı-abırlı qızlarımızın sevən ürəklərinin döyüntüsünü eşidirik...

Maraqlıdır ki, onun poeziyası bir zirvəni fəth edəndən sonra öz uğurları ilə öyünüb arxayınlaşmır, ətalətə, süstlüyə qapılmır, bu qələbələri örtüyə, qalxana çevirmir. Əksinə, yeni-yeni zirvələr fəth etmək üçün daha böyük narahatlıq, təlaş keçirir, arayır, axtarır, qüvvə və güc toplayır. Bu sənətdə tufanlarla pəncələşən, dəryaların qoynunda şəhərlər salan “qara qızıl”ı Vətənimizin qan damarlarına axıdan, ucsuz-bucaqsız tarlalarda fədakarlıq göstərən zəhmət bahadırlarının hünərini görmək olar. Bu sənətdə Dədə Qorqud dünyasının hikmətlərlə dolu sirlərindən agah olmaq olar. Nizami və Füzuli şeirinin ruhunu duymaq, Sabir və Vurğun poeziyasının şaqraq səsini eşitmək olar. Bu sənətdə bir-birinə boy verən və günbəgün ucalan şəhərlərimizin, kəndlərimizin, el-obalarımızın xoş günlərlə dolu həyatının nəğməsini dinləmək olar. Bu sənətdə qardaş ellərin dostluğunu, vahid amal, ideal uğrunda mübarizəsini, yumruq kimi birliyinin gücünü görmək olar. Bu sənətdə bərəkətli Abşeronun, bol çörəkli tükənməz sərvətli Milin, Muğanın... dadlı, ləzzətli nemətlərinin ətrini, gözəlliyini duymaq olar... Təbiət bu poeziyada dil açıb danışır, adamlarla ünsiyyət tapır, öz varlığını, qəlbini gizlətmir. Bu şeirdə insanın aşıb-daşan şıltaq uşaqlıq illəri, ömrün dəliqanlı oğlan vaxtı, kamilləşmiş müdrik çağı coşqun şair ilhamı ilə tərənnüm edildiyi kimi, həyatın xəzan dövrü də həzin və kövrək rənglərlə rəsm edilmişdir. Quş nəğməsi, yağış səsi, yarpaq pıçıltısı, bulaq şırıltısı, ana laylası, gəncliyin qaynar və qızğın təbiəti, torpaq səxavəti, çay həzinliyi həyatın, təbiətin, insanların varlığından nəşət edən əlamət, keyfiyyət kimi bu sənətin varlığına hopmuşdur.

Dünyaya arzuyla gəlir insanlar,
Yaşayır eşqiylə baharın, yazın.
Hər kəsin həyatda öz zirvəsi var,

Heç kəs zirvəsindən uca durmasın.

Xalq şairi Nəbi Xəzri yaradıcılığı ilə oxucuları yaxından tanış etmək üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasında xatirə gecəsinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanaçı bu tədbirə iki ay qabaqcadan hazırlaşır. İlk olaraq tədbirin ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. İki hissədən ibarət olan tədbirdə çıxış və məruzələr dinlənilir. Daha sonra şairin əsərlərindən, hekayə və povestlərindən səhnəciklər göstərilir. Oxucuların ifasında şeirləri dinlənilir. Tədbirdə şair və yazıçılar, ədəbiyyat müəllimləri iştirak edir. "Çiçək-Çiçək sətirlərdə söz ətri" adlı xatirə gecəsinin nümunəsini veririk. Səhnədən Nəbi Xəzrinin portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir.

Tədbir sözləri Nəbi Xəzriyə aid olan "Dərələr" musiqisinin sədaları ilə başlayır.

**Aparıcılar səhnəyə daxil olur:**

**Ömrümün mənasısan,**
**Qardaşlıq dünyasısan,**
**Anamın anasısan,**
**Azərbaycan!**

**I Aparıcı:** Dünya şöhrətli Müslüm Maqomayevin gur və məlahətli səslə oxuduğu bu mahnının sözləri Nəbi Xəzrinindir. Hər dəfə bu ifaya qulaq asdıqca, sanki insanın içində dünya boyda Azərbaycan eşqi qaynayır, çoşur-çağlayır. Mahnının mətni və musiqisi ifaçını da, dinləyicini də göylərə Azərbaycanın mavi səmasına qaldırır.

Nəbi Xəzri müasir şeirimizin ən çox oxunan, seçilən nümayəndələrindəndir. Onun şeirləri 60-80-ci illər poeziyamızın sayrışan ulduzlarından idi:

**Birdən-birə ağ əllərdə təzələşdin, ağ çiçək,**
**Ağ əllərdə elə bil ki, ağ atəşdin, ağ çiçək.**

Təsadüfi deyil ki, nəğməkar şairin 100-dən çox şeirinə mahnı yazılmışdır. Bunun yarıdan çoxu unudulmaz bəstəkarımız Emin Sabitoğlunun payına düşmüşdür.

Nəbi Xəzri 1942-cü ilin 10 dekabrında Bakının Xırdalan kəndində doğulmuşdur. Hələ orta məktəb illərindən o, şeirlər yazır, ara-sıra mətbuatda çap olunurdu. Bu həvəs, istək onu elə o sahədə də işləməyə gətirib çıxarmışdı. 1943-cü ilin aprel ayından "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində korrektor kimi işə qəbul olunmuşdu. Az sonra Azərbaycan radiosunda diktor, sonra isə "Vətən uğrunda" (indiki "Azərbaycan") jurnalında ədəbi işçi vəzifələrində çalışmışdı. Həmin illərdə onun Nəbi Babayev imzalı şeirləri çap olunurdu. Şair 20 yaşında Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilmişdi. Az sonra gənc şair Leninqrad Dövlət Universitetinin filologiya fakültəsində (1974), daha sonra isə Moskvada Qorki adına Ədəbiyyat İnstitutunda (1949) ali təhsil almışdı.

Artıq lirik ovqatlı şeirləri ilə tanınan şairin ilk şeirlər – "Çiçəklənən arzular" kitabı 1950-ci ildə "Azərnəşrdə" çap olunmuşdu. Ali təhsilini tamamlayıb Bakıya qayıdanda Nəbi Xəzri ilk şeir kitabının müəllifi idi və Azərbaycan Yazıçılar İttifaqında ədəbi məsləhətçi kimi işə götürülmüşdü. Bir il sonra o, bu birliyin katibi, sonra Azteleradio Verilişləri Komitəsinin sədr müavini (1965-71), daha sonra isə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyəti Rəyasət Heyətinin sədri (1974-1992), 1992-ci ildən ömrünün sonunacan isə "Azərbaycan dünyası" Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti vəzifəsində işlədi. Nəbi Xəzri müxtəlif vəzifələrdə çalışsa da, o, xalq arasında daha çox şair kimi nüfuz qazanmışdır. Onun bir-birindən gözəl lirik şeirləri bir vaxtlar gəncliyin dillər əzbərinə, bəstəkarların nəğmə sözünə çevrilmişdi.

Əgər ki, yıxılsam çınar göstərin,
Mən ona söykənib arana baxım.
Gözlərim görməsə Göy gölü verin,
Mən onun gözüylə cahana baxım.

**II Aparıcı:** Nəbi Xəzri şeirləri mənasına, məzmununa, lirik ovqatına görə həmişə oxucusunu düşündürüb. Nəbi Xəzri şeirlərində Azərbaycan-onun torpağı, daşı-qayası, çınarı, dənizi, çeşmələri böyük məhəbbətlə tərənnüm olunub. Bunun bir sirri də ondadır ki, o, işi ilə əlaqədar dünyanın çox ölkələrini gəzib-dolaşmışdır. Hər getdiyi ölkənin gözəllikləri timsalında Azərbaycanı görmüş və bu sevgini nəğməli sətirlərə çevirmişdir. Nəbi Xəzri gəzdiyi ölkələrlə bağlı duyğularını silsilə şeirlərə köçürmüşdür. “Avropa, dinlə məni”, “Çexoslavakiya nəğmələri”, “Ellər gəzdim, dostlar gördüm”, “Yuqoslaviya gündəliyindən”, “Yaponiya dəftərindən” və s. misal göstərmək olar. Eyni zamanda onun xarici ölkələrdə çap olunmuş “Seçilmiş şeirləri” (1976, Türkiyə), “Məhəbbət və fəlakət gözləri” (1977, Beyrut), “Poeziya” (1979, İtaliya), “Günəşli yağış” (1980, İspaniya), “Şeirlər” (1980, İran) və digər kitabları da məhz bu səfərlərin nəticəsində ərsəyə gəlmişdir.

Nəbi Xəzri lirik şeirlərlə yanaşı, həm də gözəl poemalar müəllifi kimi şöhrət qazanmışdır. Onun “Xatirələr”, “Təmiz ürək”, “Günəşin bacısı”, “İki Xəzər”, “Ana”, “Bacı”, “İnam” və s. poemaları ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Şair hətta bəzi poemalarına görə yüksək dövlət mükafatlarına da layiq görülmüşdür. Bu əsərlərinin qəhrəmanları müasirlərimizdir, nəcib, vətənpərvər, yaradıcı əməkçilərdir. Burada şairin hissləri səmimi və kövrəkdir. Bu səbəbdən də ruha doğma əsərlər indi də hamının qəlbində, yaddaşındadır. Faciəli ömür yaşamış gənc pambıqçı qız Sevil Qazıyeva, illər sonra onun mənəvi davamçısı olan gənc Tərlan Musayeva haqqında yazılmış poemalarını (“Günəşin bacısı” və

“İnam”) xüsusilə yada salmaq yerinə düşər. “Salatın” poeması dövrümüzün faciələrindən yaranmış ağrılı mövzuya həsr olunmuşdur. Nəbi Xəzrinin maraqlı və poetik poemaları vardır. Onun pambıqçı Sevil Qazıyevanın həyatına həsr etdiyi “Günəşin bacısı” adlı poeması oxucular arasında rəğbətlə qarşılanmışdı. Onun şeirləri qardaş xalqların, eləcə də dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. Nəbi Xəzri pyeslər, məqalələr, publisist yazılar müəllifi kimi də tanınmışdır.

Oxucular səhnəyə daxil olur. Nəbi Xəzrinin “Salatın” poemasından “Ata Qarabağa gedirəm yenə” şeirini söyləyirlər.

Baxdı atasının tutqun üzünə,
O, gördü mehriban baxışlarda qəm.
“Ata, Qarabağa gedirəm yenə,
Ceyhun əmanəti...əgər gəlməsəm”...
Sən nə danışırsan!
Bu sözlər nədir!
Belə bəd hisslərdən
Ay qızım, əl çək.
Qızın ürəyindən
Axdı bir fikir:
“Həmişə güllələr
            Yan keçməyəcək!”.
Ata gözlərində
            yaş giləndi,
Öpərək qızını
            Kədərlə dindi:
Mən oğul istədim
            İlk övladımı,
Dedim Soltan qoyum
            onun adını.
Sən gəldin, can qızım,

mehriban qızım
Mənə ilahidən
Ərmağan qızım.
Dedim ki, Soltana
Yaraşsın adın.
Odur ki, çağırdım
Səni, Salatın!
Mən oldum səninlə
Bəxtəvər, qızım.
Mənim yüz kişiyə
Bərabər qızım!..

Nəbi Xəzrinin nəsr əsərləri də yaradıcılığında mühüm yer tutur. Onun məqalə, hekayə, povest və ssenariləri sənətkar ustalığı ilə işlənmişdir. Vaxtilə dərc etdirdiyi "Ümmandan damlalar" kitabına topladığı nəsr əsərləri dediklərimizə sübutdur. Nəbi Xəzrinin bu kitabındakı publisistik düşüncələrini, qələm ustalarının ünvanına yazdığı ədəbi-tənqidi məqalələrini və s. oxuduqca müxtəlif illərin ədəbi taleyinə qovuşursan. Xarici ölkələrdən aldığı təəssüratlarının böyük bir qismini Nəbi Xəzri nəsrlə də qələmə almışdır.

**I Aparıcı:** Nəbi Xəzri poeziyası qeyd etdiyimiz kimi, bir çox xalqların dillərinə tərcümə olunmuşdur. Eyni zamanda o, özü də tərcüməçi kimi ədəbi xəzinəmizə xeyli əsərlər bəxş etmişdir. Şairin tərcüməçilik fəaliyyətini diqqətlə izləsək, bunun 50-60-ci illərdə daha fəal olduğunu görərik. Dünya ədəbi mühitinin istedadlı şairlərindən Fərq Bühəm, Ə.Qasimi, F.Ə.Faiz (Pakistan), Vallatxan (Hindistan), Von Day, Luu Traiq Lu və Çan Xui Txunq (Vyetnam), Jalə (İran), G.Mayoresku (Rumıniya), Nezvan, İ.Skama və M. Florini (Çex), P.Aleksis (Yunanıstan), Ş.Potefi (Macarıstan), Se Mon İr (Koreya), S.Mişel (Livan) və başqalarından olan poetik tərcümələri də diqqəti cəlb edir.

Nəbi Xəzri 60 illik yaradıcılıq məhsullarını indiyədək dərc etdirdiyi 100-ə yaxın kitabında cəmləmişdir. Bu siyahıya onun rus və xarici dillərdə dərc olunmuş kitabları da daxildir.

Nəbi Xəzri daim dövlət qayğısı görmüş xoşbəxt şairlərimizdəndir. Sovet dövründə o, SSRİ-nin və respublikanın Dövlət, Ümumittifaq Komsomolunun ali mükafatlarını almışdır. Respublikanın "Əməkdar incəsənət xadimi" (1979), "Xalq şairi"dir (1984). Müstəqil dövlətimizin "Şöhrət" və "İstiqlal" ordeninə layiq görülmüşdür.

Oxucular səhnəyə daxil olur. "Elə yazıram ki..." şeirini söyləyirlər.

Dünyanı qürurla
Məndim düşünən,
Deyirdim öz sözüm-
Öz sənətimdir.
Elə yazırdım ki,
Şeiri mən dünən,
Sanırdım bu ilkin
Səadətimdir
Fikrin məcraları
Dəyişdi ömrün,
Yalnız dəyişməyən
Xasiyyətimdir.
Elə yazıram ki,
Şeiri mən bu gün,
Sanıram sonuncu
Vəsiyyətimdir!

**I Aparıcı:** Xalq poeziyası hələ uşaqlıqdan Nəbi Xəzrinin qəlbində yuva salmışdır. Şair Xırdalanda kənd adamlarının gündəlik həyatına daxil olmuş mahnılardan, dastanlardan, bayatı və laylalardan bəhrələnmişdir. Elə buna görədir ki, onun şeirləri xalqının duyğularının ahəngdarlıqla ifadə edən mahnılara

çevrilir. M.İbrahimovun yazdığı kimi "Nəbi Xəzrinin" poeziyası mövzu etibarilə rəngarəngdir. Ondan Azərbaycan dilinin musiqisi eşidilir, ürəkdən gələn səxavət, nəciblik hiss olunur". Şairin əsərlərindəki daxili musiqi güclü cazibə qüvvəsinə malikdir. Onun bir çox şeirlərinin öz Vətənində xalq mahnısı kimi səslənməsi təsadüfi deyildir. Ruhu və şəkli etibarilə xalis xəlqi olan, əsl musiqi kimi səslənən şeirləri müasir Azərbaycan lirik poeziyasının zirvələrindən biridir:

Nə zaman ki, yuxum gəlmir mən dənizi düşünürəm.
Dalğalardan, göy sulardan düşən izi düşünürəm.
Düşünürəm sular qəlbə bir sərinlik yayır, yayır.
Bu sahildə yatan dəniz o sahildə göz yummayır.
Heç bilmirəm niyə belə dənizləri düşünürəm?
Gecələri düşünürəm, gündüzləri düşünürəm?

**II Aparıcı:** Zamanın ucalığında dayananlar həmişə bütövlüyü, özünəməxsusluğu qoruyub saxlaya biliblər. Bu mənada Nəbi Xəzri bizim o şairlərdəndir ki, onun yaradıcılığı zaman küləyinin əsirliyindən çox uzaqdır. Torpağa bağlılıq, yurd sevgisi, nikbinlik, lirizm, hisslərin dərinliyi onun poeziyasında elə lövbər salıb ki, hər bir əsəri oxucunun ürəyinə, qəlbinə təsir edərək yaddaşına köçüb. Nəbi Xəzri şeirlərinin birində yazmışdı:

Şeir mənim üçün bir kainatdır,
Onun ulduzları, günəşləri var...
Şeir mənim üçün sirli həyatdır
Onun öz sevinci, öz kədəri var.
Nə qədər qol-qanad açsa da ilham,
Mən ana torpağın sinəsindəyəm.
Nə qədər göylərə uçsa da ilham,
Mən yerin cazibə qüvvəsindəyəm...
Hər ömrün ölçüsü dünyada ildir,
Həyat təbiətin şah əsəridir.

İllər ömürlərin sonu deyildir,
İllər ömürlərin sahilləridir.

Bəli, bu gün biz ömrünün müdriklik sahillərini, poetik imkanlarını, gecəli-gündüzlü yaradıcılıq əzablarını şeirə, sənətə həsr etmiş Nəbi Xəzri yardıcılığına bir daha nəzər salırıq.

Lirika Nəbi Xəzrinin müxtəlif janr və formalarda yazılan əsərlərinin, o cümlədən poeziyasının mayasını təşkil edir.
Oxucular səhnəyə daxil olur. **“Şəhidlər xiyabanında ana harayı” adlı rekviyemdən parça söyləyirlər.**

**Ana**
Yer üzünü gəz, ey külək,
Uğultunu kəs, ey külək!
Yatan qızım oyanmasın,
Burda asta əs, ey külək!

**Külək**
Soyuq qəlbli bəyəm mənəm,
Qansızları bəyənmənəm.
Bu məbədə çatan kmi
Həzin layla deyən mənəm.

**Ana**
Biz görüşdük yenə, çinar,
Səslən dönə-dönə, çinar.
Tez pöhrələn, kölgə sal ki,
O vurğundu sənə, çinar.

**Çinar**
Dərin köklü bir çinaram,
Sən yanarsan, mən yanaram.
Səhər-axşam bu məzara
Mən keşikçi dayanaram.

**Ana**
Sellər, sular axır, torpaq
Nə ağırsan ağır, torpaq.
Qızım donar soyuqdan ki,
Üstünə qar yağır torpaq!

**Torpaq**
Mən torpağam, sor nəyim var,
Mərd kəslərdən dirəyim var.
Ağlama, anam, ağlama,
Mənim isti ürəyim var.

**Ana**
Sənə ana dedim, dünya,
Nə qədər qəm yedim, dünya.
Söylə, mənim Ceyhunumu
Niyə qoydun yetim, dünya!

**Dünya**
Bəd ay oldu, bəd il oldu,
Müqəddəslik batil oldu.
Gül nəvəni yetim qoyan
Qatil oğlu qatil oldu.

**Ana**
Qəzəb səsim qoy ucalsın,
Yerə, göyə səda salsın!
Ey nəvəmi yetim qoyan
Sənin nəslin yetim qalsın!

**II Aparıcı:** Nəbi Xəzrinin təbiət mövzusunda yazdığı şeirlər hər şeydən əvvəl öz rəmzi mahiyyəti ilə diqqəti cəlb edir. Təbiətin insan həyatı ilə, Vətənlə bağlı xüsusiyyət və cəhətlərinin artırılması, öz imkanları daxilində və özünəməxsus şəkildə tapılması, müəyyən xəlqi bədii qənaətlər Nəbi Xəzrinin təbiət

şeirlərini səciyyələndirən xüsusiyyətlərdəndir. Şair təbiətin hansı səciyyəvi hadisə və detallarına müraciət edirsə, orada, insanla onun həyat yolu və ömrü ilə, vətənli dünyası və ruhu ilə əlaqədar cəhətlər axtarır və əksər hallarda məqsədinə nail olur. Vətən, onun vəsfi və tərənnümü, ona bağlılıq Nəbi Xəzrinin başqa mövzularda yazılmış əsərlərində də xüsusi yer tutur.

Şairin “Baharlı yurdum”, “Nurlu Bakı”, “Qız qalası”, “Ana Kürüm”, “Şuşanın yolları” və s. kimi şeirlərində Vətənə sonsuz məhəbbət hissləri təkrar-təkrar yeni poetik ifadəsini tapır. N. Xəzrinin yaradıcılığında bu məhəbbət və doğmalıq duyğuları onun başqa mövzularda, hətta dünyanın müxtəlif ölkələri haqqında yazılmış şeirlərində aparıcı mahiyyət daşıyır.

Sənətkar Avropa ölkələrinə səfərdən aldığı təəssüratdan yaranan şeirlərini “Vətən və qürbət” balığı altında ayrıca kitab şəklində çap etdirmişdir. O, müxtəlif ölkə və şəhərlərlə əlaqədar olan hadisə və detalları ümumiləşdirərək ixtiyarsız öz Vətənini xatırlayır. Şair bu ölkələri dolaşdıqca, onların qoynunda başlayıb bitən ömürləri, insan talelərini müşahidə etdikcə öz doğma yurdunu daha yaxından tanıyır, duyur və sevir. Qürbət ölkədə gördüyü çinar məhz “bizim çinara bənzədiyi üçün” onda doğma və əziz hisslər oyadır:

Dinlədim, hər sözün bir qərinədir,
Gördüm ki, nə xəyal, nə əfsanədir,
Bir anlıq unutdum qəriblik nədir,
Yaxşı ki, bitmisən burda sən, çinar.
Ay bizim çinara bənzəyən çinar!

Çinar, onun bədii təsviri, ona poetik müraciət, Nəbi Xəzrinin hələ ilk şeirlərindən diqqəti cəlb edən obrazlardandır. Sonralar çinar N. Xəzrinin bütün yaradıcılığına səpələnmiş müxtəlif şəkil, müxtəlif məna və mahiyyət kəsb edən, poetik bir obraza çevrilir. Şair özünün “Çinar və mən” şeirində bu obraza tez-tez müraciət etməsinin səbəbini belə izah edir:

Mən çinar adıyla nəğmə deyirəm,
O nəğmə eşqilə sinəmi yardım.
Deyirəm, bilirsən, mən nə deyirəm?
Çinarsız özümü yetim sanardım.
Mən aldım cahandan arzu da, kam da.
Dolaşdı Çinarın adı dilimdə.
Mən Çinar altında doğulmasam da,
İstərəm o bitsin son mənzilimdə.

Kiçik yaşlı oxucular Nəbi Xəzrinin şeirlərindən söyləyirlər.

**Bağda axşam**

Bir sevinc var hər üzdə,
Nənəm nağıl danışır.
Uzanmışıq qum üstə,
Nənəm nağıl danışır.

Söyüd başını əyir,
İydə üzümə dəyir,
Çinar susur, dinləyir,
Nənəm nağıl danışır.

Bax, ulduzlar göz vurur!
Ay başım üstə durur!
Onlar da sanki duyur:
Nənəm nağıl danışır...

**Kəpənək**

Qaçma, dayan, kəpənək,
Bax gülə, bax çiçəyə,
Uçdu əlvan kəpənək.
Qondu bir ağ çiçəyə.

Tutacaqdım onu mən,
Birdən kəpənək uçdu.
Elə bil ki, əlimdən
Əlvan bir çiçək uçdu.

**I Aparıcı:** İnsan o vaxt xatırlanır ki, özündən sonra bir iz qoyub gedir. Nəbi Xəzri Azərbaycan ədəbiyyatında yüz illərlə yaşayacaq iz qoyub gedib. Fəlsəfi məzmunlu əsərləri ilə ədəbi aləmimizə özünəməxsus bir gözəllik bəxş edib...

Dənizi hədiyyə verirəm sənə,
Mən dedim, sən baxdın, sən gülümsədin,
Göylərin şəfəqi düşdü üzümə,
Mən isə göyləri verirəm dedim.
Ayrıldıq qəribə hədiyyələrlə
Göylər eşqim qədər mənə əzizdir
Ayrıldıq dənizlə ağ ləpələrlə
Necə aparasan, dəniz-dənizdir,
Dənizi verdim ki, sənə hədiyyə...

Nəbi Xəzri geniş və hərarətli yaradıcılıq yolu keçib. Bir şair olmaqla bərabər nasir, dramaturq, publisist və tərcüməçi kimi də şöhrət qazanıb. Yaradıcı əməyi yüksək qiymətləndirilib. Bir çox orden və medallara, dövlət mükafatlarına, Azərbaycan Əməkdar incəsənət xadimi, Xalq şairi fəxri adlarına, Azərbaycan Respublikasının ali dövlət təltiflərinə "Şöhrət", "İstiqlal" ordenlərinə layiq görülüb. Görkəmli şair ömrünün müdrik çağında 2007-ci il yanvarın 15-də vəfat edib.

Bu gün də o nəğmələr səslənəndə bir çoxlarını o illərə aparır, qəribə duyğular oyadır insanda, neçə-neçə xoş xatirələr yada düşür. Nə qədər ki, bu mahnılar, şeirlər bizlərə nəyisə xatırladacaq, bu misraların müəllifi, sevimli Xalq şairi Nəbi Xəzri poeziyası da daim oxunacaq və yaşayacaq...

Dərəyəm, təpəyəm, atəşəm, suyam
Günəş də məndədir, ay da məndədir.

Mən insan övladı, torpaq oğluyam,
Dəniz də məndədir, çay da məndədir.
Mənəm kainatın uca zirvəsi,
Dağların bəmbəyaz buludu mənəm.
Bu günün susmayan səsi, nəğməsi,
Uzaq əsrlərin sükutu mənəm...

Tədbir oxucuların ifasında Nəbi Xəzriyə həsr olunmuş "Zirvə" adlı şeirlə başa çatır.

Çinardan hey yazıb, özün də qardaş,
Çinar tək ucalıb qalxdın göylərə
Sənə həmdəm oldu hər qaya, hər daş,
Yaratdın Vətənə özgə mənzərə...

Sevdin ana yurdun hər qarışını,
Torpağın ətri var gözündə sənin,
Elə məğrur tutdun daim başını,
Kötüklər alışdı közündə sənin.

Sözlərin dolanır hey eldən elə,
Sən çoxdan aşmısan "Kiçik təpə"ni
Uca Şahdağısan, əzizim, elə,
Həmişə zirvədə görmüşük səni...

## Ədəbiyyat siyahısı


***Əsərləri***

Seçilmiş əsərləri : 2 cilddə. - Bakı : Lider nəşriyyatı, 2004. - (Müasir Azərbaycan ədəbiyyatı).
C. 1 : şeirlər. – 248 s.

C. 2 : şeirlər və poemalar. -264 s.

Seçilmiş əsərləri. - Bakı : Təhsil, 2014. - 440 s. - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nəbi Xəzrinin 90 illik yubileyinin keçirilməsi haqqında 25 iyun 2014 - cü il tarixli Sərəncamına əsasən çap olunmuşdur.

***Kitablarda***

Azərbaycan marşı // Azərbaycan Respublikasının dövlət rəmzləri. - Bakı : Çaşıoğlu, 2010. - S. 269-270.

Bir kərə, yalnız bir kərə : şəhid Salatın Əsgərovanın xatirəsinə // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 336-352.

Burla xatun // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - Bakı : Şərq-Qərb, 2007. - C. 2. - S. 425-510.

Dövran istəməz : Füzuliyə həsr olunur // Seçilmiş əsərləri. 2 cilddə. - Bakı : Lider, 2004. – C.2. - S. 53-54.

Ey əziz anam, Azərbaycan : şeir // Azərbaycan Respublikasının dövlət rəmzləri. - Bakı : Çaşıoğlu, 2010. - S. 267-268.

Qaçma, dayan, kəpənək ; Bənövşə ; Bahar mənəm və s. : şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2004. – C. 2. - S. 161-165.

Qanlı Yanvar // Seçilmiş əsərləri. 2 cilddə. - Bakı : Lider, 2004. - C. 2. - S. 107-111.

Nə dedim ; Ayrı sahillərin eyni dalğası ; Keçirsən və b. şeirlər // Azərbaycan sevgi poeziyası : 3 cilddə : Poeziya. - Bakı : Xəzər Universiteti Nəşriyyatı, 2009. – 2-ci kitab. – S. 119-140.

Təbiət vurğunu, alim, vətəndaş // Elin oğlu : Akademik Həsən Əliyev haqqında xatirələr. - Bakı : Elm, 2007. – S.70-76.

***Dövri mətbuatda***

Ana məhəbbəti : şeir // İşıq. - 2018. - № 1(93). - S. 13.

Bənövşə : şeir // Göyərçin. - 2017. - № 3. - S. 3.

**Haqqında**

**Kitablarda**

**Nəbi Xəzri (1924-2007)** // Müasir Azərbaycan ədəbiyyatı : dərslik. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. – C. 2. - S. 169-180.

**Rüstəmxanlı S.** Nəbi Xəzriyə : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 216-217.

***Dövri mətbuatda***

**Nəbi Xəzrinin 90** illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (25 iyun 2014-cü il) // Azərbaycan. - 2014. - 26 iyun. - № 134. - S. 4.

**Abbaslı T.** "Ömrü şeirlə ərimiş"... : ürəklərə gilavar-gilavar varıb, duyğuları xəzri-xəzri oyatmış Nəbi Xəzri // Mədəniyyət. - 2015. - 9 dekabr. - № 96. - S. 13.

**Bayramqızı Ə.** Dənizi hədiyyə verirəm sənə... : Nəbi Xəzri - 90 // Palitra. - 2014. - 16 yanvar. - № 7. - S. 15.

**Əhmədalılar T.** Sən yazırdın ki: : "Şeir mənim balam, mənim balamdır, Sənət - basılmayan məğrur qalamdır"... // Mədəniyyət. - 2014. - 17 dekabr. - № 97. - S. 10.

**Etibarlı E.** Yazılmamış müsahibə : Nəbi Xəzri - 90 // Kaspi. - 2014. - 12 iyul. - № 121. - S. 18-19.

**Göylər eşqim qədər** mənə əzizdir... : Xalq şairi Nəbi Xəzrinin 90 illik yubileyi təntənəli şəkildə qeyd olunub // Ədəbiyyat qəzeti. - 2014. - 12 dekabr. - № 48. - S. 2.

**Məmmədov A.** Poeziyamızın Xəzrisi : Nəbi Xəzri - 90 // Respublika. - 2014. - 18 dekabr. - № 277. - S. 11.

**Nəbi Xəzri (1924-2007)** : görkəmli şəxsiyyətlər // Savalan. - 2018. - 18-24 dekabr. - № 56. - S. 2.

**Nizamiqızı H.** Şairin müqəddəs arzusu : Nəbi Xəzri - 90 // Mədəniyyət. - 2014. - 12 dekabr. - № 96. - S. 4.

**Vaqif Y.** "Sənsən gümanım, Azərbaycanım..." : Nəbi Xəzri - 90 // Azərbaycan. - 2014. - № 12. - S. 87-90.

**Yusifli V.** Unudulmaz Nəbi Xəzri // Yada düşdü. - 2017. - № Aprel-may-iyun. - S. 20-23.

# Sahilsiz ömür

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info @ clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 40
Çapa imzalanmışdır: 19.11.2019
Tirajı:100
Pulsuz